# Azərbaycanın haqq səsi BMT səviyyəsində dünyaya yayıldı



***BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində keçirilən və 182 ölkənin dövlət və hökumət başçılarının videoformatda çıxış edəcəyi BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasında dövlət başçımızın sayca altıncı çıxış etməsi şübhəsiz ki, Prezident İlham Əliyevə həm Azərbaycan dövlətinin rəhbəri, həm də Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq səviyyədə göstərilən hörmət və etimadın təzahürü oldu. Dövlət başçısının həm Qoşulmama Hərəkatının sədri, həm də Azərbaycan Prezidenti kimi çıxışı, gətirdiyi arqumentlər, Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi fikirlər bütün xalqımızı qürurlandırdı.***

Öncə çıxışını Qoşulmama Hərəkatına üzv dövlətlərin adından etməyi şərəf bildiyini qeyd edən Prezident bildirdi ki, hərəkata üzv dövlətlər BMT Nizamnaməsinin imzalanmasının 75-ci ildönümünə həsr edilmiş bu Yüksək Səviyyəli İclasın keçirilməsini yüksək qiymətləndirirlər.

Məhdudiyyətlərə baxmayaraq, BMT-nin hazırda bütün ölkələrin qarşılaşdığı qlobal məsələ və çağırışların müzakirəsi üçün çoxtərəfli mərkəzi forum olmaqda davam etdiyini bildirərək, Azərbaycan rəhbəri Qoşulmama Hərəkatının narahatlıq doğuran yeni sahələr və çağırışların meydana gəldiyini dedi: “Bu gün dünyanın hər zaman olduğundan daha çox beynəlxalq hüquqa hörmət və bunu təmin etmək iqtidarında olan səmərəli qlobal təsisatlara ehtiyacı var. Bu baxımdan, Qoşulmama Hərəkatının rolu mühüm əhəmiyyətə malikdir. Özünün tarixi boyunca Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsində fundamental rol oynamış və davamlı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət edilməsinə çağırmışdır. Qoşulmama Hərəkatı BMT-nin rolunun gücləndirilməsinə çox böyük əhəmiyyət verir və onun potensialından tam istifadə olunması üçün səylərin göstərilməsini vacib hesab edir”.

Prezident İlham Əliyev yaranmasının 75-ci ildönümündə BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqan kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasının vaxtı çatdığını bildirdi. Dövlətimizin başçısı Qoşulmama Hərəkatı üçün də əlamətdar il olduğunu deyərək, hərəkatın təməl prinsiplərini özündə əks etdirən Bandunq Bəyannaməsinin qəbul edilməsinin 65 illiyinin də qeyd edildiyini vurğuladı: “Hər iki ildönümü bizə BMT Nizamnaməsində və Bandunq Bəyannaməsində əks olunmuş əsas hədəflərə nail olmaq istiqamətində əldə etdiyimiz tərəqqini nəzərdən keçirməyə və bizə – BMT-yə üzv olan dövlətlərə meydana çıxmaqda davam edən çoxşaxəli çağırışlara ümumi baxışla və gücümüzü səfərbər etməklə necə cavab verəcəyimiz üzərində düşünməyə imkan yaradacaq”.

Azərbaycan adından çıxış edən Prezident müstəqillik tariximizdən və təqribən, 30 illik bir dövrdə Azərbaycanın müxtəlif sahələrdə çox böyük tərəqqiyə nail olduğundan söz açdı. Eyni zamanda, bildirdi ki, bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər: “Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir”.

Ölkəmizin rəhbəri çıxışının davamında Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdiyini, bir milyondan çox soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə saldığını, Xocalı soyqırımı törətdiyini diqqətə çatdırdı. O, Ermənistanın işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirdiyini, Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv etdiyini də bildirdi.

Ermənistan qoşunlarının təmas xətti və Ermənistan – Azərbaycan sərhədi boyunca mülki əhalini qəsdən hədəfə alması, təxribatlar törətməsi, sonuncu təxribat zamanı – iyul ayında Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilərimizin və bir mülki şəxsimizin öldürüldüyünü də Azərbaycan Prezidenti iclas iştirakçılarının diqqətinə çatdırdı. Ermənistanın diversiya dəstəsinin təmas xəttini keçməyə cəhd edərkən, dəstənin başçısının hərbçilərimiz tərəfindən yaxalandığını, dəstə tərəfindən isə azərbaycanlı hərbçilərə və mülki vətəndaşlara qarşı terror aktları törədiləcəyinin planlaşdırıldığını dedi. Cənab İlham Əliyev vurğuladı ki, Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur: “Onun “Qarabağ Ermənistandır” bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz “yeddi şərti” tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır”.

Dövlət başçımız iclasda “Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşır. Buna görə də biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik” – dedi və təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməli olduğunu iclas iştirakçılarının diqqətinə çatdırdı.

Azərbaycan sabit, müasir və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Əminik ki, Azərbaycanın dayanıqlı inkişafının təmin olunması işinə xidmət edəcək, beynəlxalq əməkdaşlığın rəmzi olan BMT-yə açıq və güclü dəstək verəcək. Cənab Prezidentin bildirdiyi kimi, Azərbaycan BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır.

***Aydın HÜSEYNOV,***
***Milli Məclisin deputatı***